

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 200 (23.612)

19 noyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev bildirib ki, Niderland parlamentinin Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan, Azərbaycanın əleyhinə və həmçinin Türkiyənin əleyhinə olan balanslaşdırılmamış və ədalətsiz bir qərarı qəbul etməsi faktı, əlbəttə ki, bizə daha yaxın ələqələr qurmağa kömək etməyəcək. Bizim mübarizəmiz azadlıq, ərazilərin azad edilməsi uğrunda mübarizə idi və mübarizəmiz böyük hərbi və siyasi uğurla başa çatdı. Buna görə mənə çox qəribə gəldi ki, bundan sonra – Ermənistanın kapitulyasiyası olan bəyanat imzalandıqdan sonra regionumuzdan uzaqda yerləşən bir ölkədə belə bir qərar qəbul edildi. Biz bununla bağlı sizin hökumətinizin, xarici işlər nazirinizin şərhlərini gözləyirik.

Səfir Paulin Eizema bildirib ki, Niderland hökumətinin mövqeyi Avropa İttifaqının mövqeyinə çox uyğundur və çox balanslaşdırılmışdır. Biz münaqişəni izlədik, baş verənləri gördük və münaqişənin hər iki tərəfdə nələrə səbəb olduğu bizi hər zaman çox narahat edir. Ötən həftə nazirlə parlament arasında keçirilmiş sonuncu müzakirədə bu məsələlər də qaldırılmışdı. Nazir həm yazılı, həm də şifahi şəkildə israrla bildirdi ki, qaldırılan bu məsələlər mənim hökumətimin mövqeyinə uyğun deyil. Beləliklə, sanksiyalar və bu kimi məsələlər qətiyyən gündəlikdə deyil.

## Taxıl əkininin sürəti artırılır



***Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi prioritet sahələr sırasındadır. Hər il bu istiqamətdə mühüm addımlar atılır, müxtəlif layihələr icra edilir. Görülən işlər isə daxili bazarda yerli ərzaq məhsullarının xüsusi çəkisinin xeyli artmasına səbəb olur. Bu məqamda istər-istəməz bir qədər əvvələ boylanıb dükan-bazarlardakı qıtlığı, növbələri xatırlamamaq mümkün deyil. Xüsusilə də çörək dükanlarının piştaxtaları önündə saatlarla dayanan naxçıvanlıların çəkdikləri əziyyəti bugünkü gəncliyə danışsaq da, buna inanmazlar.***

Ötən illər ərzində strateji sahə olan taxılçılıqda xeyli nailiyyətlər qazanılıb. 2020-ci il də bu sahə ilə məşğul olanlar üçün uğurla başa çatıb. Taxılçılıqda yaxşı təcrübə qazanmış torpaq mülkiyyətçiləri sahələrə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərib, taxıl zəmilərində yüksək məhsuldarlığa nail olmaq üçün sahələrin suvarılmasını, ziyanvericilərə qarşı müvafiq işlərin görülməsini diqqətdə saxlayıb, çəkilən zəhmətin hədər getməməsi üçün tələb olunan bütün təsərrüfat işlərini yerinə yetiriblər. Onların çəkdiyi zəhmət öz bəhrələrini verib, taxıl tədarükünün nəticələri hamımızı, həm istehsalçıları, həm də istehlakçıları sevindirib.

Məlumat üçün bildirək ki, cari ilin məhsulu üçün muxtar respublikamızda 36 min 879 hektar sahədə taxıl əkilmişdi. Əkin sahələrinin 36099 hektarı payızlıq, 780 hektarı isə yazlıq taxıl idi. Taxıl zəmilərinin 26 min 293 hektarı buğda, 10 min 586 hektarı isə arpa olub. Zəmilərdən orta məhsuldarlıq 31,4 sentner olmaqla, 115 min 649 ton məhsul tədarük edilib. Bu, ötənilki göstəricidən 12 min 665 ton çoxdur. Təbii ki, belə yüksək nəticəyə nail olunmasında bir neçə amil başlıca rol oynayıb. Bu sırada ilk olaraq dövlət qayğısını qeyd etməliyik. Məhz bu qayğının ifadəsidir ki, cari ildə də meliorasiya-irriqasiya tədbirləri davam etdirilib, muxtar respublikaya "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin xəttilə yeni kənd təsərrüfatı texnikalarının gətirilməsi diqqətdə saxlanılıb. Belə ki, 117-si 2020-ci ilin yanvar-sentyabr aylarında olmaqla, ümumilikdə, 2916 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilib, müvafiq texnikalardan taxılçıların da istifadəsi təmin olunub. Mövsüm ərzində güzəştli kreditlərin verilməsi davam etdirilib. Taxılçılar tərəfindən yüksək reproduksiyalı toxumların əkilməsinə ciddi önəm verilib. Taxılı uzun müddətə saxlamağa imkan verən taxıl anbarlarının, un dəyirmanlarının, çörəkbişirmə sexlərinin fəaliyyəti genişləndirilib. Taxıl tədarükündə sahibkarlara və "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinə məxsus olan kombaynlardan və digər texnikalardan istifadə edilib.

Qeyd edək ki, 2021-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 36 min 500 hektar sahədə taxıl əkilməsi nəzərdə tutulub. Şum və səpin aparmaq üçün 764 təkərli, 70 tırtıllı, 116 taxılsəpən, 38 toxumtəmizləyən, 327 kotan, 300 qoşqu, 78 çizel və şırımaçan texnika saz vəziyyətə gətirilib. Bu məqsədlə "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətində 7 və fiziki şəxslərdə olan 18 toxumsəpənə pulsuz olaraq şırımaçan aqreqatlar qoşulması taxılın şum üsulu ilə əkilməsinə imkan verəcək. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında və torpaq mülkiyyətçilərində tələbata uyğun toxum ehtiyatı vardır.

Əkindən əvvəl toxumlar dərmanlanıb və toxumçuluq laboratoriyasında analiz olunaraq sertifikat verilib. Əkin zamanı muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun sınaqdan keçirilmiş reproduksiyalı "Qobustan", "Fatimə", "Quality", "Quadilop", "Dağ-daş", "Ceyhan-99", "Bezostya-1", "Konya", "Bayraktar", "Əhmədağa", "Əkiz", "Naxçıvan dəni", "Cəlilabad-19", "Qarabağ-22" taxıl sortlarından istifadə edilir. Taxıl əkini hər bir sortun səpin normasına uyğun olaraq hektara 180-200 hektar hesabı ilə aparılır. Məhsuldarlığın yüksək olması üçün toxumla birlikdə torpağın strukturuna uyğun olaraq hər hektara 100 kiloqram zənginləşdirilmiş qarışıq və digər mineral gübrələr verilir. Bütün bunlar isə muxtar respublikada bu strateji sahənin inkişafının prioritet vəzifəyə çevrilməsinin ifadəsidir.

Oktyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl sahəsində aparılan payızlıq taxıl əkininin gedişi ilə maraqlanması dediklərimizin bariz ifadəsidir.

***"Torpaqları minerallarla zənginləşdirmədən bol məhsul əldə etmək mümkün deyil"***, – deyən Ali Məclisin Sədri bildirib ki, taxılçılığın inkişafı və muxtar respublikanın taxıla olan tələbatını tam yerli istehsal hesabına ödəmək bu gün qarşımızda duran əsas vəzifədir... Muxtar respublikanın taxıla olan illik tələbatı 180 min tondur. Lakin bu gün onun 70 faizi yerli istehsal hesabına ödənilir. Əgər torpaqlardan səmərəli istifadə etməklə məhsuldarlığı artırsaq, o zaman muxtar respublikada tələbat tamamilə yerli istehsal hesabına ödəniləcəkdir.

Qeyd edək ki, muxtar respublikanın taxılçılarının gələn ilin bol məhsulunun əsasını qoymaları üçün bu mövsümdə də hərtərəfli şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, noyabr ayının 16-dək 14 min 773 hektar sahədə taxıl səpini keçirilib. Bunun 9 min 409 hektarını buğda, 5364 hektarını arpa təşkil edir. Diyarımızın ən böyük bölgəsi olan Babək rayonunda 5584 hektar sahədə taxıl əkilib. Bu prosesdə Kəngərli rayonu ikinci yerdə gedir. Rayonda 3616 hektar sahədə əkin keçirilib. Culfalı taxılçılar 2201 hektara toxum səpiblər. Şərurda 1165, Sədərəkdə 775, Şahbuz rayonunda 633, Ordubadda 429, Naxçıvan şəhərində isə 370 hektar sahədə taxıl əkini aparılıb. Onu da qeyd edək ki, taxılçılar yüksək reproduksiyalı və muxtar respublikanın coğrafi iqlim şəraitinə uyğun toxumdan istifadə edirlər. Hər il olduğu kimi, cari ildə də əkin kampaniyasını vaxtında başa çatdırmaq üçün taxılçılar texnika, yanacaq və gübrə ilə təchiz olunublar. Bu da belə deməyə əsas verir ki, gələn il də sahələrdən bol məhsul tədarük ediləcək.



✍ Muxtar MƏMMƏDOV

## Əhalinin təbii qazla təminatı diqqətdə saxlanılır

***Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması məqsədilə yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.***

Muxtar respublikanın şəhər və rayon ərazilərindən daxil olan müraciətlərə əsasən oktyabr ayı ərzində "Naxçıvanqaz Servis" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 146 ədəd mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 132-si əhali və 14-ü qeyri-əhali abonentdir.

Ötən ay qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılıb, yerli Qaz İstismar idarələrinin işçiləri sentyabr ayının 1-dən Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi üzrə ixtisasartırma kursuna cəlb edilib, kursu bitirən müdavimlərə sertifikat verilib.



Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqamətində işlər davam etdirilib, noyabr ayının 1-dək cəmi 20418, o cümlədən cari ilin oktyabr ayında 39 ədəd qaz sayğacı quraşdırılıb. Bu işlər davam etdirilir.

Hesabat ayında Qaz İstismar Xidmətinə tabe şəhər, rayon Qaz İstismar idarələrinin qəza-dispetçer sahələrinə 104 nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qazsızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 1197 çağırış daxil olub. Ay ərzində 613 qazsızması texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq aradan qaldırılıb.

Naxçıvan Muxtar Respublikasında oktyabr ayında yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi, qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilib. Yerli Qaz İstismar idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılıb.

*Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti*

Dövlət proqramı icra olunur

# Baytarlıq tədbirləri davam etdirilir

***Baytarlıq təbabəti hər bir cəmiyyətin sosial-iqtisadi həyatında rolu durmadan artan, insanların keyfiyyətli ət və süd məhsulları ilə bağlı tələbatının ödənilməsində müstəsna əhəmiyyətə malik olan bir sahədir. Muxtar respublikamızda ardıcıl şəkildə həyata keçirilən səmərəli tədbirlər nəticəsində aqrar sektorda inkişafa nail olunması kənd təsərrüfatının digər sahələri kimi, heyvandarlıqda da öz əksini tapmış, məhsul istehsalında kəmiyyətlə yanaşı, keyfiyyət amilini başlıca məqsədə çevirmişdir. Əldə edilən nailiyyətlər isə, ümumilikdə, bir amilə – əhalinin ərzaq təhlükəsizliyinin təminatına, insan sağlamlığının qorunmasına yönəlmişdir.***

Bu məqsədlə hazırlanan “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Proqramda baytarlıq sahəsində dövlət tənzimləməsi, dövlət nəzarəti və əlaqələndirmənin həyata keçirilməsi, heyvandarlıq təsərrüfatlarında elmi nailiyyətlərin, qabaqcıl təcrübənin tətbiqinə nail olunması, muxtar respublikada yoluxucu, parazitar xəstəliklərin baş verməsinin qarşısının alınması kimi bir sıra vəzifələr müəyyən edilmişdir. Həmin xəstəliklərin baş verməməsi üçün mühüm tədbirlərdən biri tələf olmuş heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısının alınmasıdır. Üçüncü rübdə bu məqsədlə Dövlət proqramının icrasına uyğun olaraq Şahbuz rayonunun Ayrınc kəndində və Şahbuz şəhərində quyular qazılmışdır. Ümumilikdə, iyul-sentyabr aylarında tələf olmuş 19 baş iribuynuzlu və 15 baş xırdabuynuzlu heyvanın cəsədi dərmanlanaraq zərərsizləşdirilmiş və basdırılmışdır.

Muxtar respublikamızda heyvan xəstəlikləri ilə bağlı həyata keçirilən tədbirlərin profilaktik xarakter daşıması müstəsna əhəmiyyətə malikdir. Çünki epizootik vəziyyətin sabit saxlanması üçün qabaqlayıcı tədbirlərin görülməsi xəstəliklərin sonrakı müalicəsi ilə müqayisədə daha çox önəm kəsb edir. Bu istiqamətdə üçüncü rübdə bruselyoz xəstəliyinə görə 2 min 332 baş iribuynuzlu, 31 min 379 baş xırdabuynuzlu, 15 min 690 baş qoçdan qan, 595 patoloji heyvan nümunəsi götürülərək yoxlanılmış və heç bir xəstəlik aşkarlanmamışdır. Eyni zamanda 5 xəstəliyə görə 66 min 750 nümunə yoxlanılmış və təyinatı üzrə tədbirlər həyata keçirilmişdir.

Peyvəndləmə heyvanlarda immunitetin yaranmasını təmin edir. Bu da heyvandarlıqda istehsalın və məhsuldarlığın artırılmasında mühüm amildir. Dövlət proqramında nəzərdə tutulan heyvan mənşəli xəstəliklərin qarşısının alınması məqsədi ilə bağlı profilaktik tədbirlərin görülməsi istiqamətində həyata keçirilən peyvəndləmə işləri də xüsusi əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi epizootik tədbirlər planına uyğun olaraq iyul-sentyabr aylarında profilaktik məqsədlə dabaq xəstəliyinə qarşı 112 min 463 baş iribuynuzlu, 33 min 791 baş xırdabuynuzlu, qarayara xəstəliyinə qarşı 40 min 229 baş iribuynuzlu, 25 min 513 baş xırdabuynuzlu heyvanda peyvəndləmə işi aparılmışdır. Həmçinin bu dövrdə aueski xəstəliyinə qarşı 48 min 286, emkar xəstəliyinə qarşı 19 min 365, leptospiroz xəstəliyinə qarşı 19 min 835, pasterellyoz xəstəliyinə qarşı 6 min 603, dermatofitoz xəstəliyinə qarşı 789, nodulyar dermatit xəstəliyinə qarşı 415 baş iribuynuzlu, çiçək xəstəliyinə qarşı 270 min 382, bradzot xəstəliyinə qarşı 22 min 574 baş xırdabuynuzlu, 198 baş quş, nyukasl xəstəliyinə qarşı 309 min 96 baş quşlarda peyvəndləmə həyata keçirilmişdir.

Səmərəli və gəlirli heyvandarlığın həyata keçirilməsi üçün heyvan xəstəlikləri ilə mübarizə aparmaq əsas şərtlərdəndir. Dövlət proqramının icrasına uyğun olaraq üçüncü rübdə 1986 obyekt üzrə 442 min 54 kvadratmetr sahədə aparılan dezinfeksiya işləri baş verə biləcək xəstəliklərin qarşısının alınmasına xidmət etmişdir. Bu dövrdə baytarlıq preparatlarının, yemlərin və yem əlavələrinin, biostimulyatorların və hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarət məqsədilə baytarlıq əczaxanalarında 5 reyd keçirilmişdir.

Yeni heyvan cinslərinin yaradılmasında süni mayalanmanın nailiyyətləri faktiki olaraq müasir dövrdə ən önəmli texnoloji metodlardan sayılır. Bu metoddan istifadə heyvandarlıq məhsullarının tez bir zamanda artırılmasını və heyvanların cins tərkibinin yaxşılaşdırılmasını təmin edir. Muxtar respublikamızda süni mayalanma işinə xüsusi diqqət yetirilir və bu istiqamətdə maddi-texniki bazanın gücləndirilməsinə yönələn tədbirlər həyata keçirilir. Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı görülən işlər,





Dövlət Baytarlıq Xidmətinə mütəmadi olaraq müvafiq texnika və ləvazimatların təqdim olunması bu sahədə yeni nailiyyətlərin əldə edilməsi üçün geniş imkanlar yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Muxtar respublikada süni mayalanma işi ən kiçik detallar nəzərə alınmaqla həyata keçirilir. Bu sahədə fəaliyyətin düzgün təşkili, heyvanların cins tərkibinin yaxşılaşması insanların gəlirlərinin artmasına imkan verəcəkdir...”*** Dövlət proqramının icrasına uyğun olaraq iyul-sentyabr aylarında muxtar respublikada 3 min 14 baş inək, düyə və camışda süni mayalanma işləri aparılmış, əvvəlcədən mayalanmış 1547 baş buzov və balaq doğulmuşdur.

Sığorta cəmiyyətin ictimai-iqtisadi həyatının bütün sahələrini əhatə etməklə, əhalinin maddi rifahının və sahibkarlıq riskinin zəmanətçisi kimi çıxış edir. Muxtar respublikamızda kənd təsərrüfatı istehsalçılarının risklərinin sığortalanmasına xüsusi önəm verilir. Üçüncü rübdə 169 baş iribuynuzlu üçün 160, 556 baş xırdabuynuzlu üçün 157 sığorta müqaviləsinin bağlanması Dövlət proqramının icrası istiqamətində təşkil olunan maarifləndirici tədbirlərin öz səmərəsini verməkdə olduğunu göstərir.

Qeyd olunanlarla yanaşı, iyul-sentyabr aylarında digər istiqamətlərdə də maarifləndirici tədbirlər davam etdirilmişdir. Xəstəliklər zamanı ənənəvi müalicələrə üstünlük verilməsi ilə bağlı 6, müxtəlif növ heyvanların və quşların, eləcə də ayrı-ayrı yaş qrupuna malik heyvanların saxlanılma şəraiti və yeni qəbul edilən heyvanların təsərrüfatlarda 1 ay müddətində təcrid edilmiş halda saxlanılmasının vacibliyi haqqında 3 maarifləndirici görüş keçirilmişdir. Eyni zamanda 2 rayon qəzetində “Kənd təsərrüfatı heyvanları arasında aparılan profilaktik peyvəndləmə tədbirlərinin əhəmiyyəti” mövzusunda məqalə dərc olunmuşdur.

Arıçılıq kənd təsərrüfatının ekoloji baxımdan ən təhlükəsiz sahələrindən biridir. Muxtar respublikada arıçılığın tarixi kökləri və ənənələrinin olması yerli arı genofondunun formalaşmasına şərait yaratmışdır. Məhz Dövlət proqramında nəzərdə tutulan tapşırıqlardan biri yerli arı genofondunun mühafizəsindən ibarətdir. Bu məqsədlə sahibkarlar arasında maarifləndirmə tədbirlərinin təşkili diqqət mərkəzində olmuşdur. Şərur rayonunun Mahmudkənd, Axura, Culfa rayonunun Gülüstan, Şahbuz rayonunun Sələsüz, Kiçik Oba kəndlərində, Şahbuz və Babək şəhərlərində sahibkarlarla təşkil olunan görüşlərdə bu istiqamətdə tövsiyələr diqqətə çatdırılmışdır. Həmçinin “Oğuz səsi” qəzetində “Arıçılıq və bu sahəyə göstərilən dövlət qayğısı” adlı məqalə dərc edilmişdir.

Baytarlıq təbabəti yalnız heyvanların deyil, insan sağlamlığının qorunması üçün də həyati önəmə malik bir sahədir. Ona görə də bu istiqamətdə mütəxəssislərin yetişməsi cəmiyyətdə gələcək sağlam mühitin əsasının möhkəm təməllər üzərində dayanması deməkdir. Muxtar respublikamızda Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin ödənişlərdən azad edilməsi bu sahəyə göstərilən dövlət qayğısının yüksək səviyyədə olmasından xəbər verir. Görülən işlərin davamı kimi, Dövlət proqramında Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələr üçün təcrübə dərslərinin keçilməsi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. Həmin tapşırığın icrasına uyğun olaraq üçüncü rübdə Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kollecinin Baytarlıq təbabəti ixtisasında təhsil alan tələbələrə Dövlət Baytarlıq Xidməti tərəfindən təcrübə dərslərinin keçilməsi məqsədilə 2020-2021-ci tədris ili üçün “Tədbirlər Planı” hazırlanmışdır.

Dövlət proqramının icrası qida zəncirinin bütün mərhələlərində heyvan mənşəli məhsulların təhlükəsizliyinin təmin edilməsinin mühüm təminatı, insan amili həmişə önə çəkilən muxtar respublikamızda əhalinin sağlamlığına verilən dəyərin təzahürüdür.

**“Şərq qapısı”**

# Balıqçılıq təsərrüfatı fəaliyyətini günün tələbləri səviyyəsində qurub



***Naxçıvan Muxtar Respublikasında 10-dan çox balıqçılıq təsərrüfatı fəaliyyət göstərir, onlar əhalinin keyfiyyətli ərzaq məhsullarına olan tələbatının davamlı şəkildə ödənilməsinə nail olmağa çalışırlar. Müxtəlif balıq növlərinin təbii halda yetişdiyi çay, göl və su anbarlarımız xüsusi şəkildə mühafizə olunur. Bu su hövzələrində muxtar respublika əhalisinin tələbatını tam şəkildə ödəyə biləcək yüksəkkeyfiyyətli balıq növlərinin yetişdirilməsi üçün əlverişli təbii şərait yaradılıb. Balıq sərvətlərimizin ciddi şəkildə qorunması üçün görülən tədbirlər də bu qiymətli qida növünün çoxaldılmasına imkan verir.***

Əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatı və balıqçılığın inkişafı üçün görülən bu tədbirlər, son nəticədə, ərzaq təhlükəsizliyinin təmin olunmasında digər sahələrlə yanaşı, balıqçılıq təsərrüfatlarının da rolunun artırılması məqsədi daşıyır. Bununla yanaşı, muxtar respublikada balıq və digər su resurslarının qorunması, bərpa və mühafizəsinə də xüsusi diqqət yetirilir. Hazırda Naxçıvanda balıq və digər su bioresursları, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlər əmtəə məhsulu əldə edilməsi məqsədilə balıqçılıq su obyektlərində artırılır, süni və təbii göllərdə dünya təcrübəsinə əsaslanmaqla balıq yetişdirilir. Bütün bunların nəticəsində balıqçılıq məhsulları istehsal edən müəssisələr formalaşır. Görülən işlər dövlətimizin bu sahəyə diqqət və qayğısından xəbər verir.

Bunun ifadəsidir ki, 2015-ci il sentyabrın 10-da muxtar respublika rəhbərinin iştirakı ilə Naxçıvan “Balıqçılıq Təsərrüfatı” üçün yeni kompleks istifadəyə verilib, bununla da, əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatı sahəsində əhəmiyyətli dəyişikliklərə yeni imkanlar yaradılıb.

Sentyabr ayından etibarən balıq ovu mövsümünün başlanması ilə balıqçılar Araz çayında ova çıxırlar. Bunun nəticəsidir ki, indi mağazalarda sərfəli qiymətə müxtəlif növ təzə balıq almaq mümkündür. Ötən günlərdə bu sahədə görülən işlərlə tanış olmaq üçün Naxçıvan “Balıqçılıq Təsərrüfatı”na yollandıq.

Naxçıvan şəhərinin Araz çayına yaxın bir ərazisində yerləşən kompleksdə öyrəndik ki, sovetlər dövründə yarıtmaz binalarda, köhnə avtomobillərlə və şəraitsiz şəkildə fəaliyyət göstərən kollektivin öz işini müasir tələblər səviyyəsində qurması, balıqçılığın inkişaf etdirilməsi məqsədilə geniş imkanlar açılıb.

Təsərrüfatın balıqçıları balıq ovu mövsümündə iqlim şəraitinə görə lazımi avadanlıq və xüsusi geyimlərlə təmin olunur, onların təhlükəsizliyi diqqət mərkəzində saxlanılır. Bütün bunlar isə balıqçılara çətinliklərin öhdəsindən gəlməyə imkan verir. Onların dedikləri:

– İstənilən hava şəraitində işləmək üçün vasitələrimiz vardır. Çox minnətdarıq ki, bizim üçün bu cür şərait yaradılıb. Əsas ona diqqət yetiririk ki, kiçik və lazımi çəkiyə uyğun gəlməyən balıqları ovlamayaq. Çünki bu sərvət təkcə bu gün deyil, gələcəkdə də insanların karına gələcək. Balıq ovunun qaydalarına ciddi əməl olunur, yurdumuzun təbii sərvətləri lazımınca qorunur ki, könlü balıq istəyən hər bir insan onu alıb süfrəsinə gətirə bilsin.

Müşahidələrimizə əsaslanaraq deyə bilərik ki, muxtar respublikamızın Heydər Əliyev, Araz, Arpaçay və Uzunoba Su anbarları kimi iri su hövzələrində öz fəaliyyətini genişləndirən Naxçıvan “Balıqçılıq Təsərrüfatı” qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış şəraitdən lazımınca istifadə etməyə çalışır. Naxçıvanın su hövzələrindən tutulan çəki, suf, xəşəm, naxa, qalınalın, dabanbalığı kimi balıq sortlarına mövsüm ərzində böyük tələbat vardır.



Bazardakı tələbatı ödəyə bilmək üçün mövcud hava şəraitindən istifadə edərək gün ərzində lazım olan həcmdə balıq ovlanır, muxtar respublikada əhalinin balıqla təminatını ödəməyə səy göstərilər. Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı yarmarkalarında adıçəkilən təsərrüfat fəal iştirak edir, işçilər əhalinin təzə balıq məhsullarına olan tələbatını təmin etmək üçün səy göstərirlər. Su hövzələrindən tutulan balıq gündəlik olaraq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində 2008-ci ildən fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində laboratoriya analizindən keçdikdən sonra satışa göndərilir. Təzə balığın satış məntəqələrinə çatdırılması üçün “Hyundai” markalı avtomobil və 2 ton tutumlu soyuducu kamera vardır.

Onu da qeyd edək ki, balığın çox vacib bir qida sayılmasının səbəbi onun həm insan orqanizmi üçün zəruri maddələrlə zənginliyi, həm də müxtəlif xəstəlik risklərindən mümkün qədər uzaqlaşdıracaq xüsusiyyətə malik olmasıdır. Bu canlının faydalı cəhətlərinə hər ötən gün yeniləri əlavə olunur. Balığın faydaları alimlərin inkişaf etmiş texnoloji imkanlarla təchiz olunmuş tədqiqat mərkəzlərindən istifadə etməsi ilə aydınlaşdırılıb. Bu cür dəyərli qida mənbəyinə “Qurani-Kərim”də işarə edilməsi və “Kəhf” surəsində yorğunluğu aradan qaldıran bir qida kimi təqdim olunması da, əlbəttə, çox hikmətlidir.

Balıq əti dadlı və şirəli olmaqla bərabər, insan orqanizmi tərəfindən tez həzm edilir. Balıq və balıq məhsulları digər heyvan mənşəli zülallı məhsullara nisbətən iqtisadi cəhətdən çox sərfəlidir. 1 qram treska zülalı eyni miqdarda toyuq zülalından 6, inək və qoyun zülalından isə 3 dəfə ucuzdur. Balıq “zəka qidası” da adlandırılır, çünki beyindəki yağın əsas tərkibi özündə “Omeqa-3” yağ turşularını ehtiva edən maddədir. Tərkibi həmin yağ turşuları ilə zəngin olan balıq yağı qandakı xolesterolu, triqliseridi və qan təzyiqini aşağı salır. Hər birimizə bu faydalı qida ilə orqanizmimizin sağlamlığı qayğısına qalmaq diləyi ilə...

**Ramiyyə ƏKBƏROVA**

## “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı” kitabının növbəti təqdimatı keçirilib





*Naxçıvan Dövlət Universitetində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı” kitabının təqdimat mərasimi keçirilib.*

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq bildirib ki, monoqrafiya muxtar respublikanın son 25 ildəki sosial-iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edən fundamental tədqiqat əsəridir. Müəllifin elmi fəaliyyətində həmişə prioritet təşkil edən diyarımızın dinamik və davamlı inkişafı əsərdə faktiki materiallar, rəqəmlər əsasında təhlil edilib. Qeyd olunub ki, son 25 ildə enerji təhlükəsizliyi, iqtisadiyyat, kənd təsərrüfatı, tikinti-quruculuq və digər sahələrdə həyata keçirilmiş genişmiqyaslı tədbirlər muxtar respublikanın tarixində xüsusi mərhələ təşkil edir. Monoqrafiyada ümummilli lider Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti dövrü muxtar respublikamızın, bütövlükdə, ölkəmizin həyatında dönüş nöqtəsi kimi qiymətləndirilir. Qısa bir zamanda qazanılan müqayisəyəgəlməz ictimai-siyasi uğurların əsasını isə, heç şübhəsiz, muxtar respublika rəhbərinin məqsədyönlü fəaliyyəti, möhkəm iradəsi, ulu öndərimizin siyasi xəttini uğurla davam etdirməsi təşkil edir.

Rektor təqdimatı keçirilən elmi monoqrafiyanın Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti, tələbə kollektivi, o cümlədən muxtar respublikamızı tanımaq, öyrənmək istəyən hər kəs üçün dəyərli, sanballı yaradıcılıq məhsulu olduğunu vurğulayaraq müəllifi uğurlu tədqiqat əsərinə görə təbrik edib, kitabın universitetə təqdim olunmasına göstərdiyi diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid tədbirdə çıxış edərək bildirib ki, yeni nəşr 1995-2019-cu illərdə muxtar respublikanın inkişaf tarixinin ən mühüm mərhələsini əhatə edən və əhəmiyyətli iqtisadi nəticələri özündə əks etdirən ilk sanballı tədqiqat əsəridir. Monoqrafiyada muxtar respublikanın dinamik və davamlı sosial-iqtisadi, mədəni inkişafı, qazanılan nailiyyətlər faktiki materiallar əsasında öyrənilib. Kitab diyarımızın tarixi, ictimai və mədəni həyatının tədqiqatçıları, iqtisadçılar, ali təhsil müəssisələrinin pedaqoji heyəti üçün zəruri vəsait olmaqla, Naxçıvanşünaslıq elminə ən qiymətli töhfədir.

Qeyd edilib ki, monoqrafiyada muxtar respublikada məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik Dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvanın sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qoruması faktı təhlil edilir, dinamik inkişafın qorunub saxlanıldığı göstərilir. Kitabda demoqrafik proseslər və məşğulluq problemlərinin həlli, səhiyyə sisteminin inkişafı və əhalinin sağlamlığının qorunması məsələsi də araşdırılıb. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Elmin İnkişafı Fondunun yaradılması haqqında, eləcə də digər tarixi sərəncamların əhəmiyyətindən ətraflı bəhs olunur. Müəllif muxtar respublikamızda elm və təhsilin inkişafı, bu sahədə yüksəkixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması və elmi nəticələrin xaricdə tanıdılması sahəsində mühüm addımlar atılmasından da ətraflı bəhs edir. Yeni nəşrdə tarixi irsin qorunması, turizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər geniş şərh olunub, Naxçıvan Muxtar Respublikasının “Caspian European Club”un Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqinin qalibi olması faktı da öz əksini tapıb. Monoqrafiya Vətənimizin ayrılmaz parçası olan Naxçıvanda Heydər Əliyev ideyalarına dərin sədaqət, uğurlu idarəetmə sayəsində bütün sahələrdəki intibah təhlil edilir, gələcək müvəffəqiyyətlər proqnozlaşdırılır.

Surə Seyid akademik İsmayıl Hacıyevi sanballı tədqiqat əsərinin ərsəyə gəlməsi münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar diləyib.

Tədbirdə “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov çıxış ediblər. Çıxışlarda bildirilib ki, yeni nəşr muxtar respublikanın 25 ilə yaxın bir dövrdə formalaşan inkişaf modelini, bugünkü ümumi mənzərəsini tam, dolğun şəkildə, konkret faktlarla oxucuya çatdırır. Muxtar respublikanın müstəqillik yollarında əldə etdiyi uğurları, keçdiyi tarixi inkişaf yolunu öyrənmək istəyən hər kəs bu kitabın imkanlarından faydalana bilər.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında muxtar respublikamızın son 25 il ərzində keçdiyi inkişaf yolundan, həyata keçirilən layihələr və qazanılan nailiyyətlərdən geniş bəhs edib, monoqrafiyanın ərsəyə gəlməsinə göstərdiyi böyük diqqət və qayğıya görə Ali Məclisin Sədrinə dərin minnətdarlığını bildirib.

Təqdimat mərasimində mövzu ilə bağlı slayd nümayiş olunub, sözügedən kitab tədbir iştirakçılarına hədiyyə edilib.

Qeyd edək ki, muxtar respublikanın 95 illiyinə həsr olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı” kitabı “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunub. Giriş hissə və üç fəsildən ibarət olan monoqrafiyanın elmi redaktoru AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli, rəyçiləri iqtisad elmləri doktoru, professor Nazim Əhmədov, tarix üzrə elmlər doktoru Fəxrəddin Cəfərov və tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovdur.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*“Naxçıvan” Universitetində İqtisadiyyat və İdarəetmə fakültələrinin əyani şöbəsinin İqtisadiyyat, Turizm və otelçilik, Mühasibat uçotu və audit, Beynəlxalq münasibətlər və Maliyyə ixtisasları üzrə IV kurs tələbələrinin 2020-2021-ci tədris ilinin payız semestrində keçəcəkləri istehsalat təcrübəsinə həsr olunmuş başlanğıc konfransı keçirilib.*

## İstehsalat təcrübəsinin başlanğıc konfransı



Konfransı giriş sözü ilə universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu açaraq istehsalat təcrübəsinin əhəmiyyətindən və təcrübə qaydalarından danışaraq bildirib ki, ali məktəb tələbələrinin tədris prosesinin vacib istiqamətlərindən biri istehsalat təcrübəsidir. Əsas məqsəd tələbələrin ilboyu auditoriyalarda əldə etdiyi nəzəri biliklərin təcrübə ilə vəhdətdə daha dərindən öyrənilməsi, onların peşəkar kadr kimi yetişməsindən ibarətdir.

Konfransda İqtisadiyyat fakültəsinin dekanı Zakir Məmmədovun İqtisadiyyat, Turizm və otelçilik ixtisaslarında, İdarəetmə fakültəsinin dekanı Naim Cahidzadənin isə Mühasibat uçotu və audit, Maliyyə və Beynəlxalq münasibətlər ixtisaslarında istehsalat təcrübəsinin keçirilməsinə dair, İqtisadiyyat kafedrasının müdiri Dilsuz Qasımovun “İstehsalat təcrübəsinin təşkili, gedişi və qarşıda duran vəzifələr” mövzusunda çıxışları dinlənilib.

Qeyd olunub ki, Turizm və otelçilik ixtisasında təhsil alan tələbələr 7 həftə, digər ixtisaslarda təhsil alan tələbələr isə 6 həftə olmaqla, ümumilikdə, 78 tələbə Naxçıvan Muxtar Respublikası Maliyyə və İqtisadiyyat nazirliklərində, Turizm Departamentində, Dövlət Miqrasiya Xidmətində, eləcə də Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsində təcrübə keçəcəklər.

**Seyfur HACIMURADOV**

*Təhsil millətin gələcəyidir*

## İnteraktiv təlim metodu müasir təhsil sistemində mühüm əhəmiyyət kəsb edir

*Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil siyasəti bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanın dünyanın inkişaf etməkdə olan ölkələri sırasında öz layiqli yerini tutması üçün digər sahələr kimi, təhsilin də standartlara cavab verməsi, təhsilalanların müasir bilik və bacarıqlara yiyələnmələri təmin olunur.*



Qürur hissi ilə deyə bilərik ki, bu gün muxtar respublikamızda da bütün sahələrlə yanaşı, təhsilə qayğı prioritet vəzifələr sırasındadır. Bunun ifadəsidir ki, təhsildə qazanılan uğurlar sürətlə artır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq sərəncamlar təhsilin inkişafında yeni mərhələnin əsasını qoymaqla tədrisin keyfiyyətini daha da yüksəldib. Bu gün doğma diyarımızda ümumtəhsil məktəbləri və ali təhsil müəssisələri ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin ediliblər. Bunun da nəticəsində orta, orta ixtisas və ali məktəblərdə interaktiv təlim metodlarından istifadə ildən-ilə daha da genişlənir və təkmilləşir.

Ölkəmizdə təhsil sisteminin inkişaf etdirilməsi, onun dünya standartlarının tələbləri səviyyəsinə çatdırılması fəaliyyətin daha çox iki istiqamətdə təşkili ilə səciyyələnir. Onlardan birincisi ölkənin daxilində təhsil sahəsində əldə olunmuş nailiyyətlərin öyrənilib ümumiləşdirilməsi və təhlil edilməsindən ibarət olub, ilk növbədə, təlim-tərbiyə sahəsində irəliləyişlərin mahiyyət və məzmununu öyrənməklə təhsilin mövcud durumunu, cəmiyyətin tələb və ehtiyaclarını müəyyənləşdirmək baxımından əhəmiyyət daşıyır. Həmçinin vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nələrin əldə olunduğunu və gələcək üçün hansı potensial imkanların yarandığını meydana çıxarmağa imkan verir. İkincisi, inkişaf etmiş xarici ölkələrin iş təcrübəsindəki mütərəqqi cəhətlərin öyrənilib ümumiləşdirilməsi və milli-mənəvi xüsusiyyətləri nəzərə alaraq tətbiqinin həyata keçirilməsi vacib bir məsələ kimi diqqətdə saxlanılır. Ölkəmizdə bu istiqamətdə xeyli işlər görülüb və görülməkdədir. Pedaqoji innovasiyalar kimi öyrənilən bu təcrübələrin keyfiyyət göstəricisi həmin ölkənin vətəndaşlarının ümumi inkişaf səviyyəsi ilə müəyyənləşdirilir. Ənənəvi pedaqoji tədqiqatların bir mühüm cəhəti kimi istənilən yanaşma eksperimental və təcrübi qaydada sınaqdan keçirilməli, bundan sonra hər hansı innovasiyanın tətbiqinə qərar verilməlidir.

Metod olaraq interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən, mövzudan, şərhdən, dialoqdan, rollu oyundan həmin anda meydana çıxan yanaşmadır. Yəni bu tərz əvvəldən planlaşdırılmır, təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox öyrənənin müstəqilliyi, müdaxiləsi ilə baş verir. Digər tərəfdən interaktivlik öyrənənlərin özləri arasında da ola bilər. Əsas cəhət odur ki, bu prosesdə əməkdaşlıq edən öyrənənlər və öyrədən eyni hüquqlu mövqedə dayanırlar.

Təcrübə və müşahidələr sübut edir ki, müasir müəllimin özünün fəallığı ilə şagirdin də yaradıcı fəallığa cəlb edilməsi, şagirdin aktiv fəaliyyəti və bu zaman onlara elementar bacarıqların aşılanması, müəllimin şagirdlərlə və şagirdlərin bir-biri ilə əməkdaşlığı, hərəkətli, süjetli, musiqili didaktik rollu oyunlardan istifadə, sosial bərabərliyin və psixoloji şəraitin yaradılması, müəllimin təqdim etdiyi tematik materialın şagirdin yaradıcı təfəkkürünə və milli düşüncə tərzinin formalaşmasına təsir etməsi təlim texnologiyaları üçün daha səciyyəvidir.

Müasir təlim texnologiyaları dərsə qədər hazırlıq prosesində müəllimin, dərsdə isə şagirdlərin fəallığını tələb edir. İnteraktiv təlim tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Bu təlim üçün müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması, problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması, şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması kimi cəhətlər səciyyəvidir.



İnteraktiv təlim zamanı şagirdin mövqeyi “kəşf edən”, “tədqiqatçı” mövqeyidir. O, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən bunları müstəqil tədqiqat prosesində həll edir. Öyrənənlər təlim prosesinin tamhüquqlu iştirakçısı olaraq bu prosesdə tədqiqatçı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər. Müəllimin mövqeyi fasilitator (bələdçi) mövqeyidir, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodik köməklik göstərir.

Ənənəvi təlim sistemində bilikləri əldə etmək üçün öyrənəni iki əsas bilik mənbəyi (müəllim və dərslik) qane edirdisə, bu gün həmin mənbələr öyrənənləri qane etmir. Bu səbəbdən müasir təlimin başlıca vəzifələrindən biri öyrənənləri öyrətməkdir, yəni öyrənənlərə bilikləri müstəqil əldə etmək bacarığını aşılamaqdır. Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu dərsin keyfiyyətini artırmaq məqsədilə güclü vasitə ola bilər. Bu metod öyrənənlər üçün dərsi çox maraqlı və cəlbedici edir.

**Hidayət ƏKBƏROV**
***Naxçıvan Dövlət Universitetinin Roman-german dilləri kafedrasının müəllimi***

## Dağların qoynunu açsın, Kəlbəcər!



Saat 6 radələrində hava yenicə ağarmaq istəyirdi. Sübh azanının səsi gəlirdi. Amma bu səhər o səhərlərdən deyildi. Bu səhər alovlu, odlu, dərdli səhər idi. Havadan vahimə qoxusu gəlirdi. Kəndin mərkəzindəki evin alışan divarları, pəncərələrdən qalxan tüstü kəndi qaralan dərdə boğmuşdu. Pərən-pərən düşmüşdü camaat. Səhərin gözü açılmamış qara xəbərə oyanmışdı Kəlbəcər. Həmin gün Ağdabanda bir çox evlər, evlərin içərisində ailələr yanıb kül olmuşdu. Nənələr, babalar, qadınlar, uşaqlar, yarımçıq qalan həyatlar, ümidlər, xəyallar, arzular da yanmışdı. Kəlbəcər dabanından yandırılmışdı həmin günü. Odu göylərə, tüstüsü dağlara qarışmışdı. Dumanında nisgilə, dağlarında kədərə boyanmışdı dağlar gözəli Kəlbəcər. Gözəlliyindən əsər-əlamət qalmamışdı. Hadisənin səbəbini başa düşə bilməyən kəlbəcərlilərin Azərbaycanla əlaqəsi də kəsilmişdi. Adada təkliyə məhkum edilmiş, əzizləri öldürülmüş Kəlbəcərin yamacları da matəmə bürünmüşdü. Çünki dağlarına od yağmışdı. Yana-yana kül olmuşdu. Boynunu büküb, qoynunu gizlətmişdi gələn kədərdən. Kədəri öz elinə yaraşdırmamışdı.

İnsanların dərdlərini danışacaq, kömək istəyəcək bir pənaha, bir ümidə ehtiyacı vardı. Hara getsinlər, kimə danışsınlar dərdlərini? Ətrafda onları dinləyəcək bir kimsələr də qalmamışdı. Kömək ala bilməsələr belə, dərdlərini danışıb nisgillərini söyləməli, təskinlik tapmalı idilər. Qarabağın müdafiə qalası idi axı Kəlbəcər dağları. Kəlbəcərlilərin kədərli ayaq izlərini, qəm yüküylə naxış çəkən dərdli baxışlarını, ürək yaralayan hicran sözlərini eşitdi Camışdağ, Dəlidağ, Ağduzdağ, Qazanuçan dağı, Dəlihəsən dağı, Şişdağ, Qaraqaya dağı, Qonurdağ, Pişikli dağı, Məsim qalası dağı, Keçibelingəzi dağı, Qumludağ, Qılışlıdağ... Dağlar nə deyə bilərdi, nə kömək edə bilərdi çarəsiz kəndlilərə? Xocalını görmüşdü dağlar. Şahidi olmuşdu yandırılan uşaqların, öldürülən qadınların, işgəncə verilən nənələrin fəryadını. “Getmə!”– deyə bilməzdi. Çünki tanıyırdı düşməni. İkinci Xocalı faciəsini Kəlbəcərdə yaşamaq, şahidi olmaq, görmək istəmirdi. Eyni əziyyətlər, işgəncələr, günahsız məsumların əllərindən alınaraq, yaşamaqları burunlarından gətiriləcək, zülm çəkərək gözləri önündə bir dağ boyda dağ çəkmişdi dağların qəlbinə.

Həmin faciədən bir il ötmüşdü. Kəlbəcərlilər hələ də o faciənin təsirində idilər. Ad qoya bilmədikləri bu faciə, sanki cəhənnəm əzabının bu dünyada törədənlərin əməlləri silsiləsində idi. Bu hadisənin ardınca düşmənlər kəndə silah-sursat daşımağa başlamışdılar. Əhali təşvişə düşmüşdü. Psixoloji “xox gəlmək” idi bu məkrin adı. Çünki məsum, dürüst xalqa başqa cür təzyiq göstərilsə idi, nəticəsiz qalacaqdı. Mərdliyimizi dəfələrlə görmüşdülər və qorxmuşdular. Buna görə də ikrah doğuran xəyanəti yol seçmişdilər özlərinə.

Ömründə silah görməyən Kəlbəcər əhalisi də silahları həmin günü gördü elə. O gün ki həmin günü qar yağdı Kəlbəcər dağlarına. Həm də 3 metr hündürlüyündə. Bəlkə, düşmənin xəyanətinin qarşısını ala bilərdi bu qar. Yox, amma xeyri olmadı. Xəyanətin rəngi yoxdur. Elə xəyanətdir. Bu qar Kəlbəcərə yağan xoşbəxtlik yox, bədbəxtlik qarı oldu. Maşın-maşın yığışıb evindən-eşiyindən didərgin düşdü əhali. 1993-cü il aprelin 2-si düşmən ayaq basdı Kəlbəcərin müqəddəs torpağına. Çinarlı kəndi ilə başlamışdı işğal. Aprelin 2-si satqınlıqla Kəlbəcər təhvil verildi ermənilərə. Bəli, düz yazmışam, verildi. Satıldı, ömürlər bahasına satıldı həm də. Bu da Ağdaban faciəsi ilə başlayan Kəlbəcərin işğal tarixinin sözlərlə təsirli təsviri. Bu hadisələrin iştirakçısı olmaq isə daha faciəvidir. Hərbi operator Vahid Mustafayevin videokadrlarında kəlbəcərlilərin son gedişlərini, narahatçılıqla yeridiyi Vətən torpaqlarının son cığırlarını, el-obadan didərgin simalarını hər dəfə gördükdə qeyri-ixtiyari bir sual yaranırdı: Görəsən, nə vaxtsa bu videokadrların əksini izləyəcəyikmi? Onları nə vaxtsa öz doğma torpaqlarımızdan qova biləcəyikmi? Görəsən, tarix təkrarlanacaqmı?

44 günlük II Qarabağ müharibəsi mübarizə ilə işğaldan azad etdiyimiz Vətən torpaqlarının, Azərbaycanın haqq qələbəsi ilə başa çatdı. Noyabr ayının 10-u Azərbaycan-Rusiya-Ermənistan arasında imzalanan bəyannamənin şərtlərində bildirildi ki, ermənilər noyabrın 15-nə kimi Kəlbəcəri tərk etməlidirlər. Təbii ki, prinsipial və hüquqi dəyişikliklərlə tarixin yeni səhifəsini yazırıq. Həm də düşməndən fərqli olaraq böyük humanistlik göstərərək onlara Kəlbəcəri boşaltmaları üçün əlavə vaxt güzəşt edərək... Haqqa əsaslanan ədalət prinsipi ilə haqqımız olanı alaraq. Elə rusların öz əli ilə bu bəyannaməni imzalatdı birlik gücümüz.

Noyabr ayının 11-dən yayımlanan videogörüntülər Kəlbəcərdən gəlir. 27 il sonra tarix təkrarlanır. Gedənsə ermənilərdir. Maşınlarına minərək yumruq gücünə tərk edirlər doğma torpaqlarımızı. Özləri də yaxşı bilirdilər ki, 27 il qonaq olduqları özgə torpağını, özgə evini bir gün tərk edəcəklər. Bizim gedişimizdən fərqli olaraq onlar beynəlxalq bəyannamənin şərtləri ilə tərk edirlər Kəlbəcəri. Yanan evlər də var videogörüntülərdə. İllər sonra Kəlbəcər dağları yenə yanan evlərə şahidlik edir. Amma bu dəfə dağlar gözəlim Kəlbəcər elin dərdinə üzülsə də, kədərli deyil. Sanki ürəyindən tikan çıxır. Qoynunu açır sevinc göz yaşları ilə. Çünki yaradan düşmənə öz əlləri ilə yaşadıqları evlərini, yuvalarını yandırmağı nəsib edib. Bundan böyük Qələbə ola bilməz!

**Türkan HÜSEYNLİ**

## Bələdiyyə fəaliyyəti ilə bağlı növbəti seminar

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə “Bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi və qanunçuluğun təmin edilməsi” mövzusunda növbəti seminar Şərur rayonunda keçirilib.*

Rayon üzrə fəaliyyət göstərən bələdiyyə sədrlərinin və qulluqçularının iştirakı ilə təşkil olunan seminarı giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyətinin nümayəndəsi Sahib Qurbanov açıb. O, muxtar respublikanın digər rayonlarında olduğu kimi, Şərur rayonunda da bələdiyyələrin fəaliyyəti üçün hərtərəfli şərait yaradıldığını qeyd edib, bu sahəyə göstərilən dövlət qayğısı və seminarın əhəmiyyəti barədə məlumat verib.

Ədliyyə Nazirliyinin əməkdaşı, I dərəcəli ədliyyə qulluqçusu Xəyal Eyvazov “Bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsini tənzimləyən qanunvericiliyin tələbləri” mövzusunda çıxış edib. Bildirib ki, bələdiyyə mülkiyyətində olan



torpaqların hüquqi və fiziki şəxslərə icarəyə verilməsi bələdiyyələrin qərarı və tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilməlidir. İcarə müqaviləsində tərəflərin hüquq və vəzifələri, torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, sərhədləri və təyinatı barədə məlumatlar, icarə müddəti, icarə haqqı və digər məsələlər öz əksini tapmalıdır.

Vurğulanıb ki, bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsi məqsədilə bələdiyyələr mülkiyyətində olan torpaq sahələrinin istifadə vəziyyəti düzgün təhlil edilməli, icarəyə verilən torpaq sahələrinin icarə haqqı bazar məzənnəsi nəzərə alınmaqla tənzimlənməlidir.

“Bələdiyyələrin mülkiyyət hüququ və torpaq sahəsi üzərində icarə hüququnun dövlət qeydiyyatı” mövzusunda çıxış edən Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin sektor müdiri Oktay Məmmədov qeyd edib ki, bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadə qarşıya qoyulan mühüm vəzifələrdəndir. Ona görə də həmin torpaqlar yalnız məqsədli təyinatı üzrə qanunvericiliklə nəzərdə tutulmuş qaydalara əməl edilməklə icarəyə verilməlidir.

Ədliyyə Nazirliyinin digər təmsilçisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov “Bələdiyyə aktlarının hazırlanması və qəbul edilməsi ilə bağlı qanunvericiliyin tələbləri” mövzusunda çıxışında vurğulayıb ki, bələdiyyələrin səlahiyyətlərinə aid olan məsələlərə dair qəbul etdikləri normativ xarakterli aktları qərar formasında qəbul olunur. Normativ xarakterli aktlar müvafiq normativ-hüquqi aktlar əsasında qəbul edilməli və qanunun müvafiq normasına istinad edilməlidir.

Sonda iştirakçılara mövzu ilə əlaqədar metodik vəsaitlər və yaddaş kitabçası təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***



Estafet

## Bu payız əbədi qalibiyyət gətirdi yurdumuza

Əvvəllər payız fəsli olanda çox darıxardım. Çünki payız mənə ömrün xəzan çağını xatırladırdı. İndi isə payız təkcə mənim üçün deyil, bütün xalqımız üçün azadlığa qovuşmağın, illərin həsrətinin bitməsinin və yenidən bütün gücümüzlə qalibiyyətimizin qoyulduğu bir fəsildir. Bu payız bizim üçün, sözün əsl mənasında, “qızıl payız” oldu. Bu payız zəfərimizin ilk baharı oldu.Yenə ağaclar yarpaqlarını tökür, otlar, çiçəklər quruyur, torpağa qarışır. Onlarla birlikdə həsrətimiz, kədərimiz də yox olur. Artıq Qarabağ yeni, azad baharını yaşayacaq. Bu baharda bütün ağacların, otların, çiçəklərin ətri eyni olacaq. Çünki onlar azadlıq qoxusu verəcək.

*Bir rəsm çək, ey türk oğlu!*
*Tarlalar bir başqa hazırlansın bahara*
*Təbil, zurna səsi gəlsin obalardan*
*Şahə qalxsın Qarabağın atları*
*Cıdır düzü qız-gəlinin səsi ilə bəzənsin.*

Ulu öndərin imperiyanın 70 illik əsarətindən sonra ilk dəfə Naxçıvanda ucaltdığı azadlığımızı, türklüyümüzü, imanımızı özündə birləşdirən üçrəngli bayrağımızı bu gün Azərbaycan igidləri Qarabağda dalğalandıraraq yenidən dirçəltdi xalqımızı. Artıq o gün gəlib çatdı, azadlığa qovuşan Qarabağımız özü ilə əbədi günəş gətirdi Azərbaycana.

Dünyaya gələn hər bir insanın doya-doya yaşamaq istədiyi azadlıq qanla yazıldı Vətən torpağına Qarabağda. Bu azadlıq günəşi bir daha sönməsin deyə Vətən üçün canlarından keçdi igidlərimiz. Şəhid qanı ilə islanan Qarabağda Türk dünyasının Çanaqqala savaşından sonra ikinci dastan yazıldı dünyanın tarixinə.

Bu dastanla yenidən bütünləşdi Azərbaycan. Şanlı bayrağımız Şuşanın, Kəlbəcərin, Laçının ən yüksək zirvəsində qartal kimi süzərək salamlayacaq Vətəni.

İşğal etdiyi yerləri tərk etməyə məcbur qalan düşmən gedərkən yenə öz xislətini gizlətməyərək evlərə, məktəblərə od vurub yandırır. Onların xislətindən doğan bu yanğın söndürüləcək, əvəzində bayram tonqalları qurulacaq bu müqəddəs torpaqlarda.

Cıdır düzündə min illərdən bəri qoruyub saxladığımız Novruz adət-ənənələri yenidən nümayiş ediləcək. Azadlıq, Vətən müharibəsində bir yumruq kimi birləşən xalqımız o tonqalın ətrafında birləşərək milli rəqsimiz olan yallını oynayacaq. Bu payız əbədi qalibiyyət, əbədi sevinc gətirdi yurdumuza. Bu gün 30 il ərzində ən gözəl, ən sevincli bayramımızı qeyd edirik. Uzaqgörənliyi, parlaq zəkası, aydın təfəkkürü, yenilməz məntiqi ilə Azərbaycanı dünyaya tanıdan ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqilliyimizin əbədiliyini qazandığımız zəfərlə daha da coşqulu qeyd edirik. Ulu öndər hər zaman ***“Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır... Mən bu yoldan dönməyəcəyəm”***, – deyirdi.

Ali Baş Komandanımızın ətrafında birləşən xalqımız bu vəsiyyəti gerçək etdi. Bu payız arzular, niyyətlər, vəsiyyətlər gerçək oldu. Ruhun şad olsun, ulu öndər! Sənin Azərbaycanın artıq tam azaddır. İgidlərimizin canı, qanı bahasına qazandığımız azadlıq müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda apardığımız mübarizəmizin zəfəridir. Əbədi azadlığın mübarək olsun, Vətən!

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər oktyabr ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 20 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 853 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 588-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi və yenidən rəsmiləşdirilməsi, daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 265 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 68-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 866